UOT 94(479.24); UOT 902

PAŞA HƏSƏNLİ
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, elmi işçi
Pasha.hesenli@gmail.com

NAXÇIVANIN QƏDİM ATÇILIQ TARİXİNƏ DAİR

DOI: https://doi.org/10.36719/2708-065X/112/198-204

Məqalədə Azərbaycanın ən qədim bölgələrindən biri olan Naxçıvan ərazisində atçılıq mədəniyyətinin formalaşması və inkişaf mərhələləri araşdırılır. Tədqiqat nəticəsində aydın olur ki, Naxçıvan yalnız Azərbaycanın deyil, bütövlükdə Yaxın Şərqin atçılıq tarixinin öyrənilməsində mühüm və əvəzsiz mövqeyə malik olmuşdur. Qeyd edilir ki, Naxçıvan ərazisi qədim dünyanın cins atçılıq ənənələrinə sahib olan və ilk süvari qoşun növlərini formalaşdırmış dövlətlərin yerləşdiyi, eləcə də onların siyasi-mədəni təsir dairələrinin kəsişdiyi strateji məkanda mövcud olmuşdur.

Bununla yanaşı, İkiçayarası və Ön Asiya sivilizasiyalarına atçılıq ənənələrinin daxil olduğu əsas yolların bilavasitə Azərbaycan, xüsusilə də Naxçıvan ərazisindən keçməsi xüsusi vurğulanır. Bu amillərə əsaslanaraq müəllif, dünyanın ən qədim atçılıq mədəniyyətinin təşəkkülündə Naxçıvanın rolunu etibarlı yazılı və arxeoloji mənbələr əsasında əsaslandırır. Eyni zamanda göstərilir ki, Avrasiya çöllərində formalaşmış atçılıq ənənələri və hərbi-taktiki süvari mədəniyyəti Naxçıvan vasitəsilə Ön Asiya və Yaxın Şərqin qədim dövlətlərinə və cəmiyyətlərinə ötürülmüş, bu təsir prosesi orta əsrlər boyunca davam etmiş və bölgədə özünəməxsus inkişaf mərhələsinə yüksəlmişdir.

Açar sözlər: Yaxın Şərq, Naxçıvan, atçılıq, II Sarqon, Urartu, Manna, iskitlər, Atabəylər dövləti, Səfəvi- Qacar atcılığı.

Giriş. Təkcə Azərbaycanın deyil, eləcə də bütövlükdə Yaxın Şərqin atçılıq tarixinin öyrənilməsində əvəzsiz yeri və əhəmiyyəti olan bölgələrdən biri də şübhəsiz Naxçıvan və ətraf ərazilərdir. Hətta bəlkə də arxeoloji, osteoloji və eləcə də yazılı mənbələrin tədqiqi, bütövlükdə qədim atçılığın təşəkkülü və inkişafı, keçdiyi mərhələlər və hətta cinsyaranma prosesinin izlənməsi baxımından Naxçıvan və ətraf ərazilər əhəmiyyətinə görə birinci kateqoriyaya aiddir. Bunun ən sadə göstəricisi Naxçıvanın yerləşdiyi ərazi, strateji mövqeyi ilə bağlıdır. Belə ki, Naxçıvan bölgəsi qədim dünyanın əsas atçı dövlətlərinin, ilk suvari ordularını yaradıb hərb meydanına çıxartmış, bu səbəbdən də dövrünün ən qüdrətli siyasi birlikləri olmuş Manna, Mada, Urartu, Albaniya dövlətlərinin tərkibində, müəyyən mənada Aşşur dövlətinin isə orbitində olmuşdur. Bu baxımdan adı çəkilən dövlətlərə aid atçılıq ənənələri və xüsusiyyətləri heç şübhəsiz ki, Naxçıvana da aid oluna bilər və bu bölgədə atçılığın tarixi, inkişafı, xüsusiyyətləri barədə çoxcildli əsərlər yazmaq da mümkündür. Hətta Vəli Əliyevin fikrincə "atın ön Asiyaya yayılması Naxçıvan vasitəsi ilə olmuşdur" [3, s.53-54]. Bu məqalədə biz Naxçıvanın tarixi abidələrinin yalnız kiçik bir hissəsinin əhəmiyyətinə işıq salmaq fikrindəyik.

Dünya atcılıq tarixinin ilkin mərhələsində Naxçıvan. Azərbaycanın son tunc dövrü üçün Xocalı-Gədəbəy, Naxçıvan və Muğan arxeoloji mədəniyyətləri səciyyəvidir.

Azərbaycanın qərb bölgəsində e.ə. II minillikdə yaşamış güclü tayfa ittifaqları əkinçilik, maldarlıq təsərrüfatının intensiv inkişaf etdirməklə yanaşı metallurgiya və metalişləmə sənəti sahəsində də mühüm nailiyyətlər əldə etmişlər. Bu tayfaların mədəni irsi arxeoloji ədəbiyyatda məşhur Xocalı - Gədəbəy mədəniyyəti ilə tanınır.

XIX-XX əsrlərdə Kür çayının sol sahillərindən başlayıb Araz çayına kimi böyük bir ərazidə aparılmış arxeoloji tədqiqatlar göstərir ki, Xocalı-Gədəbəy mədəniyyətinin izlərinə Azərbaycanın bütün ərazilərində - Mingəçevir, Gədəbəy, Göygöl [Xanlar], Xaçbulaq, Xocalı, Çovdar, Daşkəsən, Qazax və digər ərazilərdə, o cümlədən İran Azərbaycanında da rast gəlinir. Bu mədəniyyəti daşıyan tayfalar əsasən Azərbaycanın qərbində - dağətəyi ərazilərdə sıx məskunlaşmış əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olmuşlar [1, s.94].

Bunlardan böyük maraq kəsb edən abidə kompleksi e.ə.IV- I minilliklərarası dövrü əhatə edən Gəmiqaya rəsmləridir [3, s.53-54]. Bu rəsmlərin arasında at təsvirləri xüsusi maraq doğurur. Bir neçə qaya üzərində tək və adamla birlikdə at təsvirləri var.

Eyni zamanda minik atlarının üzərində və qarşısında adam təsvirləri də var. At rəsmlərindən biri qaçan vəziyyətdədir, üstündə uzun hörüklü adam oturub.

Daha bir qaya üzərində at və qarşısında adam təsviri var. Adam əlini atın başına tərəf uzadıb.

Qeyd edək ki, oxşar əhəmiyyətə malik və daha zəngin materiala sahib daha bir Azərbaycan abidəsi əlbəttə ki, Qobustan rəsmləridir. Burada e.ə. IV-I minilliklərə aid çoxsaylı at təsvirləri var. Həm də ən qədim təsvirlər daha dəqiq və yüksək ustalıqla işlənmiş təsvirlərdir [8, s.25-50].

Gəmiqaya at təsvirləri qədim Naxçıvanda atçılığın erkən inkişaf tapdığını subut edir [3, s.53-54].

Naxçıvan abidələri içində ən maraqlılarından biri kimi, ötən əsrin 30-cu illərində Ə.K.Ələkbərovun aşkarlayıb tədqiq etdiyi Şahtaxtı nekropolunun 1 saylı qəbrini misal çəkmək olar. Bu qəbir Osman Həbibullayev tərəfindən e.ə.II minilliyin axırlarına, konkret desək, e.ə. XII-XI əsrlərinə aid edilir. Bu abidənin unikallığı qəbrin təntənəli, xüsusi ustalıqla və kult elementləri [rəngli və ağ-qara saxsı qablar - H.P.] ilə zəngin olmasına baxmayaraq, içində insan deyil, yalnız sol böyrü üstə uzanmış at skeletinin olmasındadır [4, s.88-89].

Daha bir maraqlı abidə Şərurda, Maxta kəndi yaxınlığında, Qarabulaq deyilən yerdə tapılmış kurqan qəbirlər kompleksidir. Bu kurqanlardan 7-si salamat qalmış və 1989-1999 illər arası araşdırılmışdır. Bizim üçün maraqlı olan 1 saylı qəbirdir. Bu qəbirdə də insan skeleti yoxdur, ayaqları qarnına sıxılmış, başı bədənindən ayrılmış, böyrü üstə uzadılmış at dəfn olunmuşdur. Burada da at skeletindən əlavə xeyli sayda qablar qoyulmuşdur. Qabların içində biri - qonur rəngli küpə, həm də tərtibatı ilə maraqlıdır, üzərində sxematik şəkildə atlı döyüşcü təsvir olunmuşdur. Bu qəbir e.ə.VIII əsrə aid edilir [4, s.89-90].

Yuxarda göstərilən hər iki qəbrin oxşar cəhətləri xüsusi hazırlanmasına baxmayaraq, insan deyil, ata, həm də tək bir ata məxsus olmasında, eyni zamanda qəbrə qab-qacaq qoyulmasındadır. Qeyd edək ki, insan qəbirlərinə qab qoyulma ənənəsi dünya arxeologiyasında geniş yayılmış ənənədir və dini görüşlər, ölümdən sonrakı həyat haqqında təsəvvürlərlə bağlıdır. Nümunə kimi göstərdiyimiz qəbirlərdə eyni ənənə atlarla bağlı tədbiq olunur və heç şübhəsiz ki, son tunc - erkən dəmir dövrü Naxçıvan sakinlərinin dini təsəvvürləri və dünya görüşlərində atların nə dərəcədə əhəmiyyətli olduğunun göstəricisidir.

Nəzərə çatdırdığımız abidələrin tədqiqi, əhəmiyyətinin təyin olunması sözügedən dövrdə ətraf ərazilərə də nəzər salınmasını tələb edir. Belə ki, bu dövr qədim dünya tarixi baxımdan olduqca əhəmiyyətli bir dövrə təsadüf edir. Bu dövrdə Naxçıvan və ətrafları Manna və Urartu arasında münaqişə mənbəyinə çevrilmişdir. Naxçıvandan Urmiya gölünə qədər olan ərazi Manna torpaqları olsa da, Urartu tərəfindən işğal olunmuşdu. Urartulular bu əraziləri "Mannalılar ölkəsi" adlandırırdılar.

Ümumiyyətlə urartulular minik atcılığını assurlardan əvvəl mənimsəmişdilər. Onlar atları qonşuluqdakı ərazilərədən alırdılar. I Arqiştinin [e.ə.786-724] hakimiyyəti dövründə, 13 il ərzində Apuni, Artarmu, Barişa, Bixadzuni, Diauxi, Kada, Manna, Marmuna, Uiterixu, Urme adlanan şəhər və vilayətlərdən Urartu qoşunları 200 000 dən artıq əsir və 10717-dən artıq atı qənimət olaraq ələ keçirmişdilər. I Arqiştinin 785 ci il Diauxi yürüşü zamanı qızıl, gümüş və misdən əlavə, hər il 300 baş ödəmək şərtilə, birdəfəlik həm də 1000 baş at xərac təyin etmişdi. Işpuini və Menuanın cənub səfərlərində 106 atlı araba, 9174 suvari və 2704 piyada iştirak edirdi. Urartuda Uşkaya vilayəti atcılıqda xüsusi şöhrətli idi [Van gölünün şimaı-şərqində]. Bu barədə mənbə xəbər verir ki,- Uşkayada yaşayan insanların süvari üçün at yetişdirməkdə tayı-bərabəri yoxdur. Bu ölkədə yetişmiş daylaqlar müəyyən bir yaşa çatdıqda Urartuluların "Mannalılar ölkəsi" adlandırdığı Subi vilayətinə [yuxarıda göstərilən ərazilər kimi, bu vilayət də Naxçıvan və ətrafına aiddir - H.P.] gətirilir, orada hərtərəfli yoxlamadan keçirilir, eksteryeri, inkişafı yaxşı olan daylaqlar burada miniyə öyrədilir və hərtərəfli təlim görüb, orduya hazırlaşdırılır. Mətndən belə çıxır ki,Uşkayada daylaqlara heç bir təlim keçirilmir, yalnız yetişdirilir [10, s.94-96].

Manna da öz növbəsində təbii ki, işğal olunmuş əraziləri geri qaytarmağa çalışırdı. Lakin o dövrdə Urartu daha güclü orduya sahib olduğundan, müttəfiqi Assuriyadan kömək istəmək məcburiyyətində idi [9, s.205-218]. Bu dövrdə Aşşur hökmdarı II Sarqonun Mannaya yardım etmək, Manna torpaqlarını Urartu istilasından xilas etmək məqsədilə regiona e.ə.714-cü il yürüşü olduqca maraqlıdır. Urmiya gölündən şimalda, Araza yaxın ərazilərdə II Sarqon atçılığın mərkəzi olan əraziləri təsvir edir, burada çoxsaylı ilxıların olduğunu, əhalinin atçılıqda xüsusilə mahir olduğunu və Urartu hökm-

darlarının öz orduları üçün atların yetişdirilməsini və təlimini buranın əhalisinə etibar etdiyini qeyd edir. Burada yerləşən, ətrafı yaşıl çəmənlərdən, üzümlük sahələrindən, meyvə bağlarından ibarət əsas şəhərin də adı assur transkripsiyasında ULXU-dur [9, s.216-217]. Belə məlum olur ki, artıq o zamanlar uyğun gələn, yaxşı şəraiti olan, eyni zamanda təcrübəsi və ənənəsi olan ərazilərdə atcılıq zavodları salınırdı. Atlar saxlanan Ulxu vilayətində yeni suvarma sistemi qurulmuşdu, yaxşı bağlar salınmışdı, bol zəmilər göyərirdi. Bu barədə II Sarqon yazırdı ki, II Rusa boş çölləri yaşıl vadilərə çevirmişdi, yay-qış otlaqlar yaşıl idi, gözəl bağlar saldırmışdı. Xüsusi qeyd edir ki, bu sahələri Rusa öz ilxıları və sürüləri üçün otlaqlara çevirmişdi [10, s.96]. Maraqlıdır ki, əslində sözügedən ərazilər Manna əraziləridir, Urartu tərəfindən işğal olunub, Urartu torpaqları olmadığı da bəllidir, urartulular özləri buraları "Mannalılar ölkəsi" adlandırırlar, Manna daim buraları geri qaytarmağa çalışır, yəni olduqca mübahisəli və problemli ərazilərdir. Lakin buna baxmayaraq, Urartu dövləti özü və öz təhlükəsizliyi üçün fövqəladə əhəmiyyət kəsb edən süvari ordu birləşmələrini təmin edən atcılıq təsərrüfatlarını məhz bu ərazilərdə saxlayır, bu əhaliyə etibar edirdi. İlk baxışdan məntiqli görünməyə bilər. Axı dövlətin ən strateji sahəsi mübahisəli ərazilərdə yerləşirdi. Bunun yalnız bir izahı ola bilərdi. Bu ərazilərdə atçılıq ənənələri əvəzolunmaz səviyyədə idi, əhali ən qədim zamanlardan atçılıqla, at yetişdirmək və təlimlə məşğul idi. Görünür ərazinin relyefi, bitki örtüyü və s. də atçılıq üçün Urartunun daxili, öz torpaqlarından müqayisə olunmaz dərəcədə fərqli və məhsuldar idi. II Sarqonun salnaməsindəki məlumatları Şahtaxtı və Qarabulaq kurqanları ilə əlaqələndirdikdə belə qənaətə gəlmək olur ki, Naxçıvan da daxil olmaqla, ətraf arazilərin atcılıq ənənələri olduqca yüksək idi, zəmanənin iki ən qüdrətli, çoxəsrlik hərb tarixinə malik olan dövlətlərin - Urartu və Assuriyanın hətta çata bilmədiyi bir yüksəklikdə idi.

Bu dövr Naxçıvandan şimalda olan ərazilərə da nəzər salmağa çalışsaq, Kür çayına qədər olan ərazidə olduqca zəngin atçılıq ənənələrinə malik bir regionu müşahidə edə bilirik.

Tədqiqatçıların əksəriyyətinin fikrincə atçılıq ənənələrinin vətəni Avrasiya çölləri olmaqla, ikiçayarası və Ön Asiyaya şimaldan, Qafqaz vasitəsilə gətirilmişdir [11, s.187; 6, s.29-33].

Hətta Qorelikovun bir sıra başqa tədqiqatçılar kimi, fikrincə at arabalarının istehsalı belə Qafqazla bağlıdır və bu iddiasını Şərqi Avropada aşkarlanmış e.ə. III-II minilliklərə aid at arabalarının Qafqazda bitən ağaclardan düzəldilməsi faktı ilə əsaslandırır [10, s.191-192]. Eyni zamanda konkret Yaxın Şərqə də at arabalarının Qafqazdan yayılması və ümumiyyətlə arabaların vətəninin Qafqaz olması fikri də tədqiqatçılar arasında geniş yayılmışdır [11, s.176-177].

Ümumiyyətlə, atların və atçılığın qədim Yaxın Şərqə və Ön Asiyaya, oradan da Qədim Misirə Azərbaycan ərazilərindən, o cümlədən bilavasitə Naxçıvandan daxil olması şübhə doğurmur. Qorelikovun sözlərilə desək "bu heyvanlar yaxın şərqə Kiçik Asiyadan, ora isə şimaldan, Avrasiya çöllərindən gəlmişdi və buraya e.ə.III minilliyin axırı, II minilliyin əvvəllərində artıq mədəniləşmiş at cinsləri gətirilirdi. Suriya və Mesopotamiya sakinləri atları əhliləşdirmək üçün əmək sərf etməmişdilər, bu bir yandan istifadə olunan onaqrların, eşşəklərin və digər ekvidlərin onların tələblərinə lazımi qədər cavab verməsi, digər yandan atların kütləvi əhilləşdirilməsinin bu heyvanların spesifik psixoloji xüsusiyyətlərindən və xarakterindən doğan çətinliklərlə bağlıdır. Lakin e.ə.II minilliyin əvəllərindən etibarən, buralarda çox güman ki, şimaldan gətirilmiş əhilləşmiş atlar hesabına at nəqliyyatı geniş yayılmağa başladı" [6, s.187].

Bu qısa məlumatlar Naxçıvanın və onun ətraf ərazilərinin qədim dövrlərdən atçılıq üçün strateji, mədəni və texnoloji mərkəz olduğunu göstərir. Burada atçılıq ənənələrinin yüksək səviyyədə inkişaf etməsi, bölgənin təbii şəraiti, əhalinin peşəkarlığı və uzunmüddətli mədəni yaddaşla sıx bağlıdır. Ərazinin relyefi, bitki örtüyü, geniş çəmənlikləri və su mənbələri atların yetişdirilməsi və təlimi üçün əlverişli şərait yaratmış, bu da həm mülki, həm də hərbi məqsədlər üçün atların intensiv istifadəsinə imkan vermişdir. Qədim Naxçıvan yalnız Azərbaycanın deyil, bütövlükdə Yaxın Şərqin atçılıq mərkəzlərindən biri olmuş, burada formalaşmış atçılıq ənənələri siyasi, hərbi və dini həyatda mühüm rol oynamışdır. Şahtaxtı və Qarabulaq kimi abidələr isə bu ənənələrin material və rituallarla necə ifadə edildiyini açıq şəkildə nümayiş etdirir, eyni zamanda bölgənin qədim süvari mədəniyyətinin və hərbi tarixinin öyrənilməsində əvəzsiz mənbələr təqdim edir. Ilkin atcılıq ənənələrinin formalaşması dövründən sonrakı mərhələlərdə də, sözü gedən ərazilərin əhəmiyyəti nəinki zəifləmədi, hətta daha da böyük, əhəmiyyətli və strateji rola malik olmaqda davam etdi.

E.ə.IX–VII əsrlərdə Avrasiya çöllərindən Ön Asiya istiqamətində baş verən İskit axınları sadəcə tayfa miqrasiyası kimi deyil, tam formalaşmış hərbi-mədəni sistemin yeni coğrafiyalara daxil olması kimi qiymətləndirilməlidir. İskitlər artıq bu dövrdə klassik köçəri icma mərhələsini geridə qoymuş, atçılıq üzərində qurulmuş mükəmməl süvari modeli yaratmışdılar. Bu model yüksək manevr qabiliyyətinə malik yüngül süvari dəstələrinə, uzaq məsafədən oxatma texnikasına və döyüş meydanında çevik taktiki davranışa əsaslanırdı [12, s.38-39].

İskit atçılıq ənənəsinin əsas mahiyyəti atın yalnız hərəkət vasitəsi kimi deyil, döyüş strategiyasının mərkəzi elementi kimi istifadə edilməsində idi. Süvari oxçuların fasiləsiz hərəkət halında ox atması, saxta geriçəkilmə yolu ilə düşməni nizamsızlığa sürükləməsi və daha sonra çevik əks-hücumla nəticəni həll etməsi bu sistemin əsas taktiki xüsusiyyətlərini təşkil edirdi. Bu taktika Yaxın Şərqin ağır silahlı, nizamlı piyada və araba birliklərinə əsaslanan orduları üçün ciddi hərbi-psixoloji zərbələr vurmuşdu [5, s.177].

Naxçıvan və ona bitişik ərazilər bu prosesdə xüsusi yer tuturdu. Coğrafi baxımdan Cənubi Qafqazla Ön Asiyanı birləşdirən təbii keçid zonasında yerləşən Naxçıvan İskit çöl atçılıq mədəniyyətinin Urartu, Midiya və Assuriya hərbi ənənələri ilə birbaşa təmasda olduğu məkan idi. Arxeoloji materiallar - at skeletləri ilə müşayiət olunan kurqanlar, metal yəhər və üzəngiyə aid detallar, eləcə də "heyvan üslubu"na məxsus bədii təsvirlər - bu bölgədə İskit süvari mədəniyyətinin dərin və davamlı izlər buraxdığını göstərir [12, s.38].

Xüsusilə vurğulanmalıdır ki, İskitlər Naxçıvan ərazisində yalnız hərbi güc nümayiş etdirməmiş, eyni zamanda yerli mədəni mühitlə qarşılıqlı təsirə girmişlər. Bu qarşılıqlı təsir nəticəsində klassik çöl atçılıq ənənələri tədricən Yaxın Şərq dövlətçilik modellərinə uyğunlaşdırılmış, at dövlət təsərrüfatının, diplomatik münasibətlərin və sosial status sisteminin tərkib hissəsinə çevrilmişdir. Beləliklə, İskit modeli bu bölgədə ilkin köçəri formadan çıxaraq regional kütləvi atçılıq mədəniyyətinin əsasını qoymuşdur.

Bu mənada Naxçıvan İskit dövründə sadəcə tranzit məkan deyil, çöl atçılıq mədəniyyətinin transformasiya olunduğu və yeni keyfiyyət qazandığı əsas regional mərkəzlərdən biri kimi çıxış etmişdir. Məhz burada İskit süvari sistemi Ön Asiya mədəni mühitinə uyğunlaşdırılmış və sonrakı dövrlərdə bölgədə formalaşan atçılıq ənənələrinin ideoloji və texniki bazasına çevrilmişdir.

Orta əsr Azərbaycan atcılıq tarixində Naxçıvan. İskit dövründən sonra Avrasiya çöl atçılıq mədəniyyətinin Yaxın Şərqə ikinci böyük və sistemli daxilolma mərhələsi Hun və Göytürk siyasi-hərbi ənənələri ilə bağlıdır. Bu mərhələdə artıq təkcə taktiki üstünlük deyil, dövlət səviyyəsində təşkil olunmuş süvari sistemləri formalaşmışdı. Hun və Göytürk atçılıq modeli mərkəzləşdirilmiş komanda strukturu, onluq-hərbi bölgü sistemi və sürətli strateji hərəkət imkanları ilə fərqlənirdi [15, s.78-85].

Hun və Göytürk süvari ənənələrinin əsas xüsusiyyətlərindən biri tam atlı ordu konsepsiyası idi. Ordunun əsas döyüş yükünü piyada deyil, süvari hissələr daşıyırdı. Atlı oxçuların yanında nizəli ağır süvarilər də formalaşmışdı ki, bu da hücum və təqib mərhələlərində həlledici rol oynayırdı. Bu model klassik çöl taktikasının daha inkişaf etmiş, dövlət ordularına uyğunlaşdırılmış forması idi və sonradan Səlcuqlu hərbi sisteminin bünövrəsini təşkil etmişdir [7, s.138-139].

Naxçıvan bu prosesdə yenidən strateji mərkəz kimi çıxış etmişdir. Böyük Səlcuqlu imperiyasının tərkibində Azərbaycan Atabəylər dövləti faktiki olaraq Naxçıvanı əsas siyasi və hərbi mərkəzinə çevirmişdi [2, s.171-173]. Bu dövrdə Hun-Göytürk mənşəli çöl atçılıq ənənələri İslam dünyasının hərbi təşkilatları ilə sintez olunaraq yeni keyfiyyət qazanmışdır. Səlcuqlu süvariləri həm klassik çöl manevr taktikasını, həm də Yaxın Şərq mühasirə və nizami döyüş üsullarını eyni anda tətbiq edə bilirdilər [13, s.133-138].

Məhz bu sintez Naxçıvan və ətraf ərazilərdə formalaşan atçılıq mədəniyyətini regional çərçivədən çıxararaq Avropa və Bizans hərb sistemlərinə təsir göstərə bilən bir modelə çevirmişdir. Bizans mənbələrində Səlcuqlu süvarilərinin çevikliyi, at üzərində oxatma bacarığı və döyüş meydanında sürətli mövqe dəyişməsi xüsusi vurğulanır. Bu xüsusiyyətlər birbaşa Hun-Göytürk atçılıq ənənələrinin davamı kimi qiymətləndirilə bilər.

Beləliklə, Naxçıvan Səlcuqlu-Atabəylər dövründə İskit mərhələsindən sonra ikinci dəfə kütləvi çöl atçılıq mədəniyyətinin Yaxın Şərqə və Avropaya ötürüldüyü əsas mərkəzlərdən biri olmuşdur. Bu

dövrdə at artıq təkcə döyüş vasitəsi deyil, dövlət gücünün, siyasi legitimliyin və hərbi üstünlüyün simvoluna çevrilmişdi.

Qaraqoyunlu və Ağqoyunlu dövrlərində atçılıq ənənəsi öz zirvəsinə çatmışdı. Qaraqoyunlu və Ağqoyunlu tayfaları yüzillərdır davam edən türk süvarilik ənənəsinə söykənərək, Naxçıvan ərazisində böyük sürülər saxlayırdılar. Atlar həm hərbi, həm də siyasi gücün əsası idi. 1406-cı ildə baş vermiş Qara Yusif - Miranşah döyüşündə, Qara Yusifin mürəkkəb süvari manevrləri Miranşah ordusunun məğlubiyyətində həlledici rol oynadı. Mənbələr göstərir ki, Qara Yusif qoşunlarının özəyini Naxçıvan yaylaq bölgələrində yetişdirilmiş yüngül süvarilər təşkil edirdi [18, s.63-70]. Bu süvarilər sürətli hücum, çevik geriçəkilmə, at üstündə oxatma, yan cinah zərbələri ilə döyüşün taleyini həll etmişdi.

Sonralar, Səfəvi və Qacar dövrlərində Naxçıvan və ətraf ərazilər atçılıq baxımından əvvəlki çöl ənənələrinin davam etdiyi, eyni zamanda saray və dövlət təsərrüfatı ilə inteqrasiya olunduğu mühüm regional mərkəzlərdən biri kimi çıxış etməkdə davam etmişdir. Bu mərhələdə artıq atçılıq mədəniyyəti köçəri döyüş modeli çərçivəsindən çıxaraq institusionallaşmış dövlət sistemi daxilində fəaliyyət göstərirdi [16, s.67-73].

Səfəvi dövründə süvari qoşunları, xüsusilə Qızılbaş atlıları dövlətin hərbi dayağını təşkil edirdi. Bu atlı birliklərin əsas xüsusiyyəti onların həm çöl mənşəli hərbi ənənələri qoruması, həm də klassik Azərbaycan və ətraf ərazilərin dövlətçilik modeli ilə uyğunlaşdırılması idi. Naxçıvan bu prosesdə həm at yetişdirilməsi, həm də hərbi-logistik təminat baxımından mühüm rol oynamışdır. Mənbələrdə bölgədən toplanan atların saray süvari birliklərinə göndərilməsi xüsusi qeyd olunur [17, s.112-118].

Sözü gedən ərazilərdə yetişdirilən atların keyfiyyət göstəricilərindən biri həm də atların diplomatik və iqtisadi rolunun yüksək olması ilə nəticələnirdi. Səfəvi sarayında Naxçıvan və Qarabağ mənşəli atlar Osmanlı sultanlarına, Hindistan Böyük Moğol imperatorlarına, Krım xanına hədiyyə edilirdi [16, s.114].

Qacar dövründə isə atçılıq daha çox inzibati və iqtisadi çərçivədə təşkil olunmuşdur. Dövlət üçün at tədarükü müəyyən bölgələr üzrə sistemləşdirilmiş, Naxçıvan bu siyahıda önəmli mövqeyini qoruyub saxlamışdır. Bu dövrdə at həm hərbi məqsədlər, həm də diplomatik hədiyyə mübadiləsi üçün istifadə olunurdu ki, bu da onun sosial və siyasi əhəmiyyətini daha da artırırdı [14, s.189-195]. Qacar dövləti Naxçıvanda yetişən atları xüsusi reyestrə salaraq dövlət tədarükü sisteminə daxil etmişdi. XIX əsr rus mənbələri Naxçıvan atlarının sürəti, əzələli quruluşu, sərt dağ iqliminə uyğunluğu ilə seçildiyini bildirir.

Beləliklə, Səfəvi-Qacar mərhələsində Naxçıvanın atçılıq ənənələri əvvəlki İskit və Hun-Göytürk mirasını qoruyaraq onu dövlət səviyyəsində davam etdirən regional mərkəz funksiyasını yerinə yetirmişdir. Bu dövrdə atçılıq artıq yalnız hərbi bacarıq deyil, həm də siyasi idarəetmə və iqtisadi resurs kimi qiymətləndirilirdi.

Nəticə. Beləliklə, nəticə etibarilə, aparılan təhlil göstərir ki, Naxçıvan və ətraf ərazilər ən qədim dövrlərdən etibarən, ilkin atcılıq mədəniyyətinin təşəkkül tapdığı ərazilərdən olmaqla, ön Asiyanın qədim sivilizasiyalarına və dövlətlərinə atcılıqla bilavasitə bağlı olan həyat tərzi, mədəni, iqtisadi, siyasi və ən əsası hərbi ənənələrin yayılmasında ən əhəmiyyətli coğrafiyalardan olmuşdur. Eyni zamanda, Avrasiya çöl atçılıq mədəniyyətinin Yaxın Şərq və Avropa istiqamətində yayılmasında mühüm rol oynamışdır. İskit dövründə çöl süvari modelinin ilkin transformasiyası, Hun-Göytürk və Səlcuqlu mərhələsində bu modelin dövlət səviyyəsində inkişafı və nəhayət Səfəvi-Qacar dövründə institusionallaşması bu bölgənin atçılıq tarixində fasiləsiz mərkəz rolunu təsdiqləyir.

Naxçıvan bu proseslərdə sadəcə keçid məkanı deyil, atçılıq mədəniyyətinin formalaşdığı, yenidən qurulduğu və regional sistemlərə inteqrasiya olunduğu əsas tarix-mədəni məkandır. Bu baxımdan Naxçıvanın rolu təkcə lokal deyil, Avroasiya kontekstində qiymətləndirilməlidir.

ƏDƏBİYYAT

1. Avşarova, İ.N.; Pirquliyeva, Q.Ə. Qafqaz arxeologiyası. Dərslik. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2010, 248 s.
2. Bünyadov Ziya, Azərbaycan Atabəyləri dövləti. Bakı, 2006, 248 s.
3. Əliyev, V. Gəmiqaya. Bakı, 2005, 148 s.
4. Quliyev, F. Azərbaycanın kurqan qəbirlərində at dəfni. Bakı, 2008, 294 s.

5. Гасанов, Заур. Царские скифы (этноязыковая идентификация «царских скифов» и древних огузов). Нью-Йорк, 2002, 486 с.
6. Гореликов, М.В. Боевые колесницы Переднего Востока III–II тыс. до н.э. В кн.: Древняя Анатолия. Москва, Наука, 1985, 255 с. (с.183-202).
7. Гусейн-заде, Рауф. Сельджукская эпоха истории Кавказа. Москва, 2012, 186 с.
8. Джафарзаде, И.М. Гобустан - наскальные изображения. Баку, Изд-во «Эльм», 1973, 348 с.
9. Дьяконов, И.М. История Мидии (от древнейших времен до конца IV века до н.э.). Москва-Ленинград, Издательство Академии наук СССР, 1956, 485 с.
10. Ковалевская, В.Б. Конь и всадник (пути и судьбы). Послесловие Н.Я.Мерперта. Москва, Наука, 1977, 152 с.
11. Кожин, П.М. К проблеме происхождения колесного транспорта. В кн.: Древняя Анатолия. Москва, Наука, 1985, 255 с. (с.169-182).
12.Мамедов.С.Г. История войн и военного искусства Азербайджана. Баку, 1997, 385 с.
13. Cahen, Claude. Pre-Ottoman Turkey: A General Survey of the Material and Spiritual Culture and History, c.1071-1330. New York, Taplinger Publishing, 1968, 459 p.
14. Floor, Willem M. Safavid Government Institutions. Costa Mesa: Mazda Publishers, 2001, 352 p.
15. Golden, Peter B. An Introduction to the History of the Turkic Peoples. Wiesbaden, Otto Harrassowitz, 1992, 494 p.
16. Matthee, Rudi. The Politics of Trade in Safavid Iran: Silk for Silver, 1600-1730. Cambridge, Cambridge University Press, 1999, 290 p.
17. Savory, Roger. Iran under the Safavids. Cambridge, Cambridge University Press, 1980, 266 p.
18.Woods, J. The Aqquyunlu. Clan, Confederation, Empire. The Utah University Press, 1999, 343 p.

ПАША ГАСАНЛЫ
Институт истории имени А.А.Бакиханова, АНАН, научный сотрудник

К ДРЕВНЕЙ ИСТОРИИ КОНЕВОДСТВА НАХИЧЕВАНИ

В статье рассматриваются процессы формирования и развития культуры коневодства на территории Нахичевани - одного из древнейших регионов Азербайджана. В результате исследования установлено, что Нахчыван занимает важное и уникальное место не только в истории коневодства Азербайджана, но и в общем контексте развития коневодческих традиций Ближнего Востока. Отмечается, что территория Нахчывана находилась в зоне пересечения государств и цивилизаций древнего мира, обладавших развитыми традициями породного коневодства и создавших одни из первых кавалерийских соединений.

Особо подчеркивается, что основные пути проникновения традиций коневодства в Месопотамию и Переднюю Азию проходили непосредственно через территорию Азербайджана, прежде всего Нахчывана. На основе этих обстоятельств автор обосновывает роль Нахчывана в формировании одной из древнейших коневодческих культур мира, опираясь на достоверные письменные и археологические источники.

В статье также показано, что коневодческие традиции и военно-тактическая культура конницы, сформировавшиеся в евразийских степях, через Нахчыван оказывали влияние на древние государства и общества Передней Азии и Ближнего Востока. Данный процесс продолжался на протяжении всего средневековья и достиг в регионе особого уровня развития.

Ключевые слова: Ближний Восток, Нахичевань, коневодство, Саргон II, Урарту, Манна, скифы, государство Атабеков, сефевидско-каджарское коневодство.

PASHA HASANLI
Institute of History named after A.A.Bakikhanov, ANAS, Researcher

ON THE ANCIENT HISTORY OF HORSE BREEDING IN NAKHCHIVAN

The article examines the formation and development of horse-breeding traditions in Nakhchivan, one of the most ancient regions of Azerbaijan. The study demonstrates that Nakhchivan occu-

pies a unique and significant position not only in the history of Azerbaijani horse breeding, but also in the broader context of horse-breeding traditions of the Near East. It is noted that the territory of Nakhchivan was located at the intersection of ancient states and civilizations that possessed advanced traditions of purebred horse breeding and were among the first to establish cavalry forces.

In addition, special emphasis is placed on the fact that the main routes through which horse-breeding traditions entered Mesopotamia and Western Asia passed directly through the territory of Azerbaijan, particularly Nakhchivan. Based on these factors, the author substantiates the role of Nakhchivan in the formation of one of the world's earliest horse-breeding cultures using reliable written and archaeological sources.

The article also highlights that the horse-breeding traditions and military-tactical cavalry culture formed in the Eurasian steppes were transmitted to the ancient states and societies of Western Asia and the Near East via Nakhchivan. This process continued throughout the Middle Ages and reached a distinct stage of development within the region.

Keywords: Near East, Nakhchivan, horse breeding, Sargon II, Urartu, Manna, Scythians, Atabegs State, Safavid-Qajar horse breeding.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 21 yanvar 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.e.d. Xeyirbəy Qasımlı, t.e.d. Əmrah Dadaşov.